Azərbaycan Respublikasının Mərkəzi Bankı

# MALİYYƏ SABİTLİYİ HESABATI

2024 I YARIMİL

# MALİYYƏ SİSTEMİNİN FƏALİYYƏT GÖSTƏRDİYİ MAKROİQTİSADİ MÜHİT

## ❑ Qlobal makroiqtisadi mühit aşağıdakı amillər əsasında formalaşmışdır:

- Davam edən geosiyasi və geoiqtisadi gərginliklər
- Avropa və ABŞ-də faiz dərəcələrinin azalacağı istiqamətində gözləntilər
- Qlobal əmtəə qiymətlərində azalma tendensiyasının səngiməsi
- Yumşaq eniş gözləntilərinin artmasına baxmayaraq inflyasiya risklərinin davam etməsi

## ❑ Azərbaycanda yarımil ərzində mövcud olmuş makroiqtisadi mühit:

- Qeyri neft-qaz sektorunun iqtisadi artımda payı artmaqda davam etmişdir.
- Nominal effektiv məzənnə bahalaşmış və inflyasiya azalmışdır.
- Məşğul əhalinin artımı və əhalinin gəlirlərinin yüksəlməsi maliyyə sabitliyini dəstəkləmişdir.
- Xarici ticarət balansı profisitli olmuş və valyuta ehtiyatlarında artım trendi davam etmişdir.

- Əhalinin rifahının yaxşılaşdırılması və iqtisadi artımın dəstəklənməsi istiqamətində hökümət və AMB tərəfindən həyata keçirilən müvafiq büdcə və pul siyasəti tədbirləri iqtisadiyyatın dayanıqlılığını və maliyyə sabitliyini dəstəkləmişdir.

# MALİYYƏ SEKTORU BANK ƏSASLIDIR

Maliyyə sektorunun aktivləri dinamikası , mlrd. manatla*




Mənbə: AMB

Maliyyə sektorunun strukturu, %-lə




- 2024-cü ilin ilk yarımilində maliyyə sektorunun cəmi aktivləri 1.3 mlrd manat (+2.6%) artmışdır ki, bunun 1.2 mlrd. manatı bank sektorunun hesabınadır.



* Aqrarkredit BOKT nəzərə alınmadan

# BANK SEKTORUNUN KAPİTAL MÖVQEYİ BAZARIN GENİŞLƏNMƏSİNİ DƏSTƏKLƏYİR

Bank sektorunun kapital mövqeyi




Mənbə: AMB

Risk üzrə ölçülmüş aktivlərin cəmi aktivlərə nisbəti




Mənbə: AMB

- Sektorun kapital mövqeyi prudensial tələbləri üstələməkdədir.
- Yüksək kreditləşmə dinamikası və istehlak kreditlərinin requlyativ çərçivəsinin sərtləşməsi fonunda risk üzrə ölçülmüş aktivlər artmaqda davam etsə də, sektorun kapital mövqeyi 17.9 mlrd. manat kreditləşmə potensialını özündə saxlayır.

# BANK SEKTORU ÜZRƏ KREDİT RİSKLƏRİ AŞAĞI SƏVİYYƏDƏDİR

QİK portfelinin dinamikası




Restrukturizasiya edilmiş portfelin dinamikası, mlrd. manatla




Mənbə: AMB

- Cari ilin ilk yarısında qeyri-işlək kreditlərin həcmi 9.5% (58 mln. manat) artsa da, kredit portfelinin artımı fonunda QİK əmsalı sabit qalmışdır.

# İQTİSADİYYATIN SAHƏLƏRİ ÜZRƏ KREDİT RİSKLƏRİNDƏ NƏZƏRƏ ÇARPAN DƏYİŞİKLİK OLMAMIŞDIR

QİK əmsalının biznesin sahələri üzrə dinamikası




Mənbə: AMB



AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

# BANK SEKTORUNUN LİKVİD AKTİVLƏRİ AZALSA DA, LİKVİDLİYİ KOMFORT ZONADA QALMAQDADIR




Mənbə: AMB

- Bankların sərbəst vəsaitlərini kreditləşməyə yönəltməsi fonunda likvid aktivlərin həcmi azalmışdır.
- Qısamüddətli likvidliyin qiymətləndirilməsi üzrə tətbiqinə başlanılan LCR (likvidliyin örtülmə əmsalı) göstəricisi prudensial normanı 40 faiz bəndi üstələyir.

# LİKVİDLİK BUFERİ MÜDDƏT UYĞUNSUZLUĞUNUN LİKVİDLİK RİSKİNƏ CİDDİ TƏSİR GÖSTƏRMƏMƏSİ İLƏ NƏTİCƏLƏNİR

Aktiv və öhdəliklərin müddət uyğunsuzluğu




Likvidliyin Örtülmə Əmsalı (LCR)




Mənbə: AMB

- Müddəti 1 ilədək olan aktivlərin ümumi aktivlərdə payı 48%, öhdəliklər üçün analoji göstərici isə 71% təşkil etmişdir.
- Sektorun likvidlik buferi (LCR – 140%, ani likvidlik əmsalı – 50%) bu uyğunsuzluğun likvidlik riskinə ciddi təsir göstərməməsi ilə nəticələnir.

# UZUNMÜDDƏTLİ DE-DOLLARİZASİYA TRENDİ DAVAM EDİR




Mənbə: AMB




Mənbə: BVF (FSI metodologiyası əsasında)

- Manatın məzənnəsinin sabitliyi və makroprudensial çərçivə de-dollarizasiya prosesini dəstəkləyir.

# KREDİTLƏŞMƏ FƏALİYYƏTİNDƏ YÜKSƏK AKTİVLİK DİNAMİKASI MÜŞAHİDƏ OLUNUR

Kredit portfelinin və nominal q-neft ÜDM-in artım dinamikası, %




Kredit portfelinin 6 aylıq dinamikası, %-lə




Mənbə: AMB

- 2024-cü ilin birinci yarımili ərzində bütün portfellər üzrə 12 aylıq artım 20% ətrafında olmuşdur.

# BANK SEKTORUNUN İQTİSADİYYATIN BÜTÜN SAHƏLƏRİNİ MALİYYƏLƏŞDİRMƏSİ MÜŞAHİDƏ EDİLİR

Biznes portfelinin iqtisadiyyatın sahələri üzrə 6 aylıq artım dinamikası, mln manatla




Mənbə: AMB

- Cari ilin 6 ayı ərzində biznes portfeli 1.26 mlrd. manat və ya 10% artmışdır.
- Biznes portfelinin artımında əsas drayver ticarət, sənaye, informasiya və rabitə sektorları olmuşdur.

# ƏHALİNİN BORC YÜKÜ İLƏ BAĞLI RİSKLƏR DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

## Əhalinin borc yükünün sərəncamda qalan gəlirlərinə nisbəti




** Əhalinin borc yükü= fiziki şəxslərin kredit təşkilatları (Bank, BOKT) qarşısında istehlak və ipoteka kreditlərinin qalıq məbləğinin cəmi*

mln. manat

## İstehlak portfelinin BGN üzrə bölgüsü




Mənbə: AMB

- İstehlak portfelinin artımı əsasən BGN>45% hesabına formalaşıb.
- Əhalinin sərəncamda qalan gəlirlərində müsbət artım dinamikası müşahidə edilsə də, yüksək kreditləşmə tempi nəticəsində əhalinin borc yükünün sərəncamda qalan gəlirdə payının artımı müşahidə edilir.

# BANK SEKTORUNUN MƏNFƏƏT GENERASİYASI ARTMAQDA DAVAM EDİR




Mənbə: AMB

- Son 3 ilin eyni dövrü ilə müqayisədə xalis mənfəət 68% artmışdır.
- Sektorun ROA əmsalı 2.5%, ROE əmsalı isə 21.4% təşkil edir.
- Cari ilin ilk yarısında banklar tərəfindən 0.5 mlrd. manat dividend ödənilmişdir.

# BANK SEKTORU ÜZRƏ ƏSAS TƏNZİMLƏMƏ TƏDBİRLƏRİ

**1. Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydasının yenilənməsi**

Aidiyyəti şəxslərlə daha təhlükəsiz və sağlam əməliyyatların təmini, şəffaflığın artırılması məqsədilə “Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası” yenilənmişdir.

**2. Kredit risklərinin idarə edilməsi qaydasında dəyişikliklər**

Kreditlərin verilməsi prosesinə üçüncü şəxslərin cəlbi, habelə istehlak kreditləri üzrə həyat sığortası təminatının genişləndirilməsi üçün “Banklarda kredit risklərinin idarə edilməsi Qaydası” dəyişilmişdir.

**3. İnformasiya təhlükəsizliyinin təmin edilməsinə dair tələblər**

Banklar, BOKT-lər, poçt rabitəsinin milli operatoru, kredit büroları üzrə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər qüvvəyə minmişdir.

**4. Dayanıqlı maliyyə prinsipləri sənədi təsdiq olunub**

Dayanıqlı maliyyə prinsiplərinin bankların strategiyası, korporativ idarəetmə, risk idarəetməsi və hesabatlıq istiqamətləri üzrə inteqrasiya məqsədilə təlimat təsdiq olunmuşdur.

# SIĞORTA SEKTORU ARTIM POTENSİALINI REALLAŞDIRMAQDADIR

Sığorta haqlarının dinamikası, mln. manatla




Sığorta ödənişlərinin dinamikası, mln manatla




Mənbə: AMB

- Sığorta haqqı və ödənişləri üzrə artımın əsas drayveri həyatın yaşam sığortasıdır.

# BAZAR PAYI YÜKSƏK OLAN SIĞORTA SİNİFLƏRİ ÜZRƏ ZƏRƏR ƏMSALI YÜKSƏKDİR




Mənbə: AMB

- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sinifi üzrə sığorta haqlarının yeni qaydasının tətbiqi fonunda həmin sinif üzrə zərər əmsalı 9% f.b aşağı enmişdir.
- Tibbi sığorta üzrə zərərlilik əmsalı yüksək olaraq qalmaqdadır.
- Daşınmaz əmlakın icbari sığorta növünün təkmilləşdirilməsi istiqamətində işlər aparılmaqdadır.

# BAZARIN İNKİŞAFI FONUNDA SIĞORTA SEKTORUNUN MƏNFƏƏTLİLİYİ ARTIR, KAPİTAL MÖVQEYİ YAXŞILAŞIR

Sığorta şirkətlərinin mənfəətliliyi, mln. manatla




Məcmu və tələb olunan kapital, mln.manat




Mənbə: AMB

- 2024-cü ilin ilk yarımili ərzində sığorta sektorunun xalis mənfəəti ötən ilin müvafiq dövrünə nisbətdə 20% (16 mln.manat) artmışdır.
- Sektorun kapital buferi 9% artaraq (10 mln.manat) 120 mln.manat olmuşdur.

# SIĞORTA SEKTORU ÜZRƏ ƏSAS TƏNZİMLƏMƏ TƏDBİRLƏRİ

**1. Sığorta ehtiyatlarının hesablanma qaydasında dəyişikliklər**

Sığorta ehtiyatlarının formalaşdırılması və ehtiyatlarda təkrarsığortaçıların payını tənzimləmək məqsədilə "Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası" təsdiq edilmişdir.

**2. Sığorta şirkətlərində yeni korporativ idarəetmə standartlarının təsdiq edilməsi**

Sığortaçıların təşkilati strukturu, şirkətdaxili nəzarət mexanizmləri, risklərin idarə olunması və hesabatlılığının təkmilləşdirilməsi məqsədilə «Sığortaçılarda korporativ idarəetmə standartları» təsdiq olunmuşdur.

**3. Sığortaçının sistem əhəmiyyətli sığortaçı kimi qiymətləndirilməsi meyarları**

Maliyyə bazarlarında sistem riski yaradan sığortaçıların fəaliyyətinin xüsusi rejimdə tənzimlənməsi məqsədilə «Sığortaçının sistem əhəmiyyətli sığortaçı kimi qiymətləndirilməsi Meyarları» təsdiq edilmişdir.

**4. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə qaydaların təkmilləşdirilməsi**

İstehlakçı hüquqlarının müdafiəsinin gücləndirilməsi, habelə dövlət qeydiyyatı həyata keçirilən bütün növdən olan nəqliyyat vasitələrinin sığortalanmasının təmini məqsədilə Qaydalarda dəyişikliklər edilmişdir.

**5. İnformasiya təhlükəsizliyinin təmin edilməsinə dair tələblər**

"Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər" qüvvəyə minmiş və sığortaçılara münasibətdə də tətbiq edilməyə başlanmışdır.

# 2024-CÜ İLİN I YARIMİLİNDƏ MALİYYƏ SEKTORUNDA HƏYATA KEÇİRİLMİŞ NƏZARƏT TƏDBİRLƏRİ

| | |
|---|---|
| YOXLAMALAR | 18 |
| NƏZARƏT TƏDBİRLƏRİ* | 47 |
| CƏRİMƏLƏR VƏ MALİYYƏ SANKSİYALARI | 135,609 manat |
| LİSENZİYANIN LƏĞVİ, DAYANDIRILMASI VƏ YA MƏHDUDLAŞDIRILMASI İLƏ BAĞLI TƏDBİRLƏR | 37** |

*Emitentlər, nəzarət subyektləri və onların rəhbər işçilərinə qarşı təsir, təshih tədbirləri və sanksiyalar, habelə nəzarət subyektlərinin fəaliyyətində aşkar olunmuş pozuntuların aradan qaldırılması və ya pozuntulara səbəb ola biləcək halların qarşısını almaq məqsədilə icrası məcburi göstərişlər.

**28 fiziki və 2 hüquqi şəxs sığorta agentlərinin lisenziyası dayandırılıb, 6 fiziki şəxs və 1 müstəsna hüquqi şəxs sığorta agentinin lisenziyası ləğv olunub.

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK